**Vətən müharibəsi adı ilə tariximizin ən şanlı səhifələrindən birinə çevrilən İkinci Qarabağ müharibəsində Azərbaycanın möhtəşəm qələbəsi şəhidlərimizin canları, qazilərimizin sağlamlıqlarını itirməsi, cəsur zabit və əsgərlərimizin qəhrəmanlığı, şücaəti nəticəsində əldə olunub. Şübhəsiz ki, dövlətimiz vətən uğrunda canından keçmiş şəhidlərimizin ailələrinə və eləcə də qazilərimizə, həmçinin torpaqlarımızın düşmən işğalından azad olunmasında qəhrəmanlıq göstərmiş bütün döyüşçülərimizə diqqət və qayğı ilə yanaşır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən sosial siyasətin prioritet istiqamətlərindən ən başlıcası şəhid ailələrinin və müharibə iştirakçılarının sosial təminatının gücləndirilməsidir.**

Bu barədə əməkdaşımızla söhbətində Milli Məclisin deputatı Tamam Cəfərova bildirib ki, bu istiqamətdə dövlət başçısının sərəncamları əsasında mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına dövlət qayğısınının ən bariz nümunəsi Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə "YAŞAT" Fondunun yaradılması olub. Belə ki, "YAŞAT" Fondu bu istiqamətdə dövlətin institusional təşəbbüsü olaraq öz fəaliyyətində humanitar missiyanı ehtiva edir. Fondun əsas məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsidir.



# Ölkəmizdə sosialyönümlü dövlət modeli formalaşıb

Millət vəkili xüsusilə vurğulayıb ki, institusional təşəbbüslər sayəsində dövlət siyasətinin sosialyönümlülüyü qorunur. Tarixi qələbə unudulmaz şəhidlərimizin, qazilərimizin qanı, canı, mərdliyi ilə savaş meydanında qazanılmışdır. Azərbaycan dövləti hər zamankı kimi vətəndaşının, hərbçilərimizin yanındadır. Dövlətimiz Vətən müharibəsində şəhid olmuş döyüşçülərimizin ailə üzvlərinə, qazi və hərbçilərimizə dərin ehtiramla diqqət və qayğı göstərir.

Sosial məsələlərin həlli ilə bağlı ortaya qoyulan siyasi iradə və ardıcıl praktik addımlar deməyə əsas verir ki, Azərbaycanda sosialyönümlü dövlət modeli formalaşdırılıb. Qlobal bazardakı dəyişikliklərdən, tələb-təklifdən, yeni çağırışlardan doğan islahatlar belə sosialyönümlü tədbirlərlə kompensasiya edilir. Başqa sözlə, bazar iqtisadiyyatının möhkəmlənməsi üçün kompleks tədbirlər sistemi əhalinin sosial baxımdan nisbətən həssas təbəqəsinin maraqlarına xidmət edir. Bu siyasət postmüharibə dövründə xüsusilə geniş vüsət alıb. Prezident İlham Əliyevin göstərişi ilə postmüharibə dövründə icra olunan sosial dəstək paketi 100 min şəxsi əhatə edib, onlara 166 min xidmət göstərilib. Bu proseslərdə həm Heydər Əliyev Fondu, həm də digər qurumlar tərəfindən mühüm addımlar atılır, kompleks layihələr icra olunur. Bu istiqamətdə ən genişmiqyaslı siyasət məhz qazilərimizə, şəhid ailələrimizə yönəldilib.

Millət vəkili Tamam Cəfərova qeyd edib ki, bu istiqamətdə atılan mühüm addımlardan biri də 1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuları və daxili işlər orqanları əməkdaşlarını, onlardan vəfat edənlərin vərəsələrini əhatə edən sosial dəstək proqramının həyata keçirilməsidir.

Prezident İlham Əliyevin müharibə əlillərinə xüsusi qayğısını əks etdirən növbəti sosial dəstək proqramı çərçivəsində 11 minədək şəxsə e-sistem üzərindən proaktiv qaydada ödəmə təyin olunaraq onların bank hesablarına köçürülüb. Bu, bir daha onu göstərir ki, dövlət Vətənin azadlığı, suverenliyi uğrunda canından, sağlamlığından keçən hər kəsi öz qayğısı ilə əhatə edir.

Bütün bu qeyd etdiyimiz faktlar onu deməyə əsas verir ki, Azərbaycan dövlətinin apardığı siyasətin mərkəzində insan amili dayanır. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi sosial siyasətin prioritet istiqamətlərindən ən mühümü ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin və Konstitusiya quruluşunun müdafiəsi uğrunda canlarından keçən şəhidlərin ailələrinin və müharibə iştirakçılarının həyat şəraitinin yaxşılaşdırılması, onların problemlərinin qısa zaman ərzində həll olunmasıdır.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**